# Qəhrəmanlıq salnaməsi



***İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ötən il sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etdi və "münaqişənin hərbi yolla həlli yoxdur" – deyənlərə sübut etdi ki, həlli var! Dövlət başçımızın dediyi "Münaqişənin hərbi yollarla həll edilməsi qaçılmaz idi" – fikri öz təsdiqin tapdı. Qələbəmizi təmin edən səbəblərdən biri də xalqımızın bütünlüklə dövlətimizin başçısının ətrafında birləşməsi hamının səfərbər olması idi. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, şanlı ordumuzun tarix yazaraq, düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də, işğal altında olan yaşayış məntəqələrimizi, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri bir-birinin ardınca azad etməsi əsgər və zabitlərimizdə, habelə xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.***

## Zəfər paradına aparan yol

Həmin gün dünya ictimaiyyətinin gözü Azərbaycana dikilmişdi. 30 il həsrətində olduğumuz, bir milyondan artıq soydaşımızın didərgin salındığı dədə-baba torpaqlarının işğaldan azad olunmasının Zəfər günü idi. Azadlıq meydanında. 8 Noyabr tarixi qələbə bayramının təntənəsi keçirilirdi. Bu, 44 gün ərzində düşməni diz çökdürərək qazandığımız unudulmaz Qələbə bayramı idi.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Dövlət başçımız Azadlıq meydanında keçirilən paradların birində demişdi ki, Zəfər paradına 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdi ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək. Dekabrın 10-da keçirilən Zəfər paradı həmin günün sevincini yaşatdı hər birimizə. Təkcə Azərbaycan xalqı yox, dünya ictimaiyyəti bu tarixi günün şahidi oldu. Bu, müstəqillik tariximizə yazılan qəhrəmanlıq salnaməsi idi.

Bu tarixi Qələbə gününün ilk sevincini 2016-cı ilin Aprel döyüşlərində yaşadıq. Aprel döyüşləri haqlı olaraq böyük zəfərin başlanğıcı adlandırılır. Həmin döyüşlərdə Azərbaycanın ön xəttdəki mövqeləri, sərhədboyu ərazilərdəki yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriyadan intensiv atəşə tutulmuşdu. Silahlı qüvvələrimizin əks-həmləsi nəticəsində Ermənistan ordusunun təxribatlarının qarşısı alındı. Düşmən güclü müqavimət qarşısında tab gətirə bilməyib silah-sursatını ataraq qaçdı. Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Ümumilikdə, 2 min hektar ərazimiz 27 illik düşmən əsarətindən azad edildi. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mif alt-üst edildi.

Aprel döyüşlərindən iki il sonra – 2018-ci ilin mayında Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edildi. Bununla da ordumuz daha əlverişli mövqelərə çıxdı. Xunut dağı və Ağbulaq yüksəkliyi, daha sonra isə Qızılqaya və Mehridağ işğaldan azad edilərək Dərələyəz mahalının Arpa kəndi (Ermənilər adını dəyişdirərək "Areni" qoymuşdular) nəzarət altına keçdi. Ümumilikdə, 11 min hektara yaxın ərazi nəzarət altına alındı.

Bu ağır məğlubiyyətlərdən ibrət götürməyən düşmən öz havadarlarına, anti-Azərbaycan qüvvələrə arxayın sərhədyanı ərazilərdə təxribatları yenə də davam etdirir, yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutur, işğalçı xislətini nümayiş etdirirdi. 2020-ci ilin iyulunda müxtəlif çaplı silahlardan və artilleriya qurğularından istifadə edən Ermənistan silahlı qüvvələri Tovuz rayonu istiqamətində mövqelərimizə yenidən hücum etdi. Tovuz əməliyyatı zamanı da düşmən heç bir uğur qazanmadan ağır itkilər verərək yenə əvvəlki mövqelərinə çəkilməyə məcbur edildi. Aprel döyüşləri, Günnüt və Tovuz əməliyyatları ordumuzun qüdrəti ilə yanaşı, xalq-dövlət-ordu birliyinin təntənəsi oldu.

Ötən il sentyabrın 27-də işğalçı Ermənistan ordusu yenidən sərhədboyu ərazilərimizdə təxribatlar törədərək ölkəmizə qarşı açıq şəkildə müharibəyə başladı. Düşmənə layiqli müqavimət göstərən ordumuz 44 günlük əks-hücum əməliyyatlarını müvəffəqiyyətlə başa vurdu. Vətən müharibəsi bizim böyük zəfərimizlə bitdi. 30 il ərzində dünyanın super gücə malik dövlətlərinin, o cümlədən, nüfuzlu beynəlxalq təşkilatların nizamlaya bimədikləri münaqişə 44 gün ərzində Azərbaycanın öz gücü ilə həllini tapdı. Bununla da ölkəmiz son iki əsrlik tarixində ilk dəfə müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək, düşməni diz çökdürərək çıxdı. Müzəffər ordumuzun əldə etdiyi tarixi zəfər dövlət və xalqın mənafeyi baxımından xüsusi əhəmiyyətə malikdir. 30 ilə yaxın bir müddətdə düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi, ilk növbədə, Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Bütün bunlar Azadlıq meydanında keçirilən Zəfər paradına aparan yol idi.

Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən, silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, hərbi gəmi və katerlərin nümayişi ilə yanaşı, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin nümayişi, ən əsası isə İkinci Qarabağ müharibəsində iştirak edən hərbi hissələrin nümayəndələrinin, qazilərimizin, həmçinin torpaqlarımızı azad edən əsgərlərin Azadlıq meydanında sıra addımı ilə qələbəni qeyd etməsi hər birimizdə qürur və şərəf hissi yaratdı.

Bu, şəhidlərimizin, qazilərimizin, Vətən müharibəsi qəhrəmanlarının qanları ilə yazılmış Qarabağ salnaməsi, XXI əsrin əsl zəfər tarixidir. Dövlətimizin başçısı ölkəyə rəhbərlik etdiyi müddətdə verdiyi vədlərin birini də Zəfər paradında yerinə yetirdi: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək". Bütün dünya ictimaiyyəti bunun şahidi oldu.

## İnformasiya cəbhəsində qazanılan qələbə

Azərbaycanın parlaq zəfərini şərtləndirən amillər – diplomatik, iqtisadi, hərbi, mənəvi-psixoloji və digər sahələrdə görülən işlərdir. Son 18 ildə diplomatik sahədə mühüm əhəmiyyətli işlər görülüb. Münaqişənin həlli ilə bağlı mükəmməl hüquqi baza formalaşdırılıb, tarixi həqiqətlər və real vəziyyət dünya ictimaiyyətinə çatdırılıb. BMT, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və digər aparıcı beynəlxalq qurumların qərar və qətnamələrində Ermənistan ordusunun işğal etdiyi Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması öz əksini tapıb. Azərbaycan Prezidentinin səyləri nəticəsində ölkəmiz Ermənistanın və havadarlarının yaratdığı mifləri dağıdıb, informasiya müharibəsində üstünlük əldə etməyi bacarıb.

Avropa İttifaqı ilə Azərbaycan arasında parafланmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının dəstəklənməsi ölkəmizin göstəricisidir. Dövlət başçımızın ayrı-ayrı dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlərində, tədbirlərdə iştirakı zamanı Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini, tarixi və mövcud vəziyyət haqqında həqiqətləri çatdırması qələbəmizin daha da yaxınlaşdırılmasında mühüm rol oynadı. Bütün bunlar Ermənistanın üzərində həm də informasiya sahəsində diplomatik uğurumuz idi.

Azərbaycanın tərəfdar çıxdığı mühüm ikitərəfli və çoxtərəfli sənədlərdə ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərimizin toxunulmazlığının dəstəklənməsi ilə əlaqədar müddəaların daxil edilməsi işğalçı ölkəni beynəlxalq aləmdə küncə sıxışdırdı.

Azərbaycan informasiya müharibəsində də qələbə qazandı və münaqişə ilə bağlı həqiqəti əks etdirən mənzərəni dünya ictimaiyyətinə çatdırdı. 44 günlük müharibə dövründə Prezident İlham Əliyevin dünyanın 30-a yaxın aparıcı media orqanına verdiyi müsahibələr beynəlxalq informasiya məkanında ölkəmizin mövqeyini gücləndirdi, erməni yalanlarının ifşa edilməsində önəmli rol oynadı. Dövlət başçımızın prinsipial mövqeyi informasiya məkanında da uğurlarımızı təmin etdi.

Azərbaycan Prezidentinin Vətən müharibəsi ərəfəsində və gedişində günlər ərzində 30-a qədər xarici KİV təmsilçilərinin, xüsusilə "Əl-Cəzirə", "Əl-Ərəbiyyə" "TRT Haber", "Pervıy Kanal", "CNN Türk", "Euronews", "CNN International", "Sky News", "RBK", "Haber Global", "Haber Türk", "NTV", "France 24", televiziya kanallarına, Rusiyanın TASS, Ria Novosti agentliyi üçün, "Rossiya Seqodnya"ya verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edir. Bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də, onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

## Ordumuzun qüdrəti

Hərbi Qənimətlər Parkı Azərbaycan Silahlı Qüvvələrinin gücünün, qüdrətinin nümunəsidir. Prezident İlham Əliyevin təşəbbüsü ilə ərsəyə gəlmiş park Ermənistana və onun havadarlarına göz dağıdır. Çünki buradakı mənzərə işğalçı ölkənin rüsvayçı məğlubiyyətini əks etdirir.

Parkın ərazisindəki hər bir element, demək olar, nadirdir. Məsələn, buradakı oturacaqların alt hissəsi qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Parkın ərazisindəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, tullantı yeşikləri isə tank mərmisinin barıt atıcısının futlyarından hazırlanıb.

Hərbi Qənimətlər Parkının ən maraqlı hissələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-manеələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, beton dirəklər və metal "kirpilər", alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələr, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi. Otuz il ərzində möhkəmləndirilən mövqelərin daxilində isə yaxşı təchiz edilmiş döyüş postu, əsgər kazarması yerləşir. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir.

Hərbi Qənimətlər Parkı qazanılan tarixi zəfərin nümayişi, həmçinin canlarını və sağlamlıqlarını Vətənin müdafiəsi, ərazi bütövlüyümüzün təmin olunması yolunda əsirgəməyən mərd oğul və qızlarımızın qəhrəmanlığı baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar Azərbaycana zəfər qazandıran döyüşləri, ordumuzun gücünü, qüdrətini bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

Bu gün fəxrlə, qürurla dünyaya bir daha uca səslə bəyan edirik: "Qarabağ Azərbaycandır!"

***Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"***